https://doi.org/10.59849/2410-5600.2025.2.37

UOT: 070.

**Cəlal Allahverdiyev**
*Filologiya üzrə fəlsəfə doktoru, dosent*
*Azərbaycan Dövlət İqtisad Universiteti*
*Bakı şəhəri, İstiqlaliyyət küç., 6*
*e-mail: jalal_allahverdiyev@unec.edu.az*

**Ramidə Abbasova**
*AMEA Məhəmməd Füzuli adına Əlyazmalar İnstitutu*
*Bakı şəhəri, İstiqlaliyyət küç., 26*
*e-mail: ramideabbasova87@gmail.com*

# "ZƏNGİ" QƏZETİ : QƏRBİ AZƏRBAYCAN QADINLARININ SÖZ VƏ MAARİF TRİBUNASI

**Xülasə**

"Zəngi" qəzeti Qərbi Azərbaycanda maarifçilik və qadınların mətbuatda fəallaşması sahəsində mühüm rol oynamışdır. Qəzetin qadın müxbirləri, xüsusilə, təhsil, qadın hüquqları, ailə dəyərləri və mədəniyyətin qorunması mövzularında yazılarla çıxış edərək cəmiyyətin inkişafına böyük töhfə vermişlər. Onların fəaliyyəti Qərbi Azərbaycanda qadınların ictimai həyatda daha fəal olmasına yol açmışdır. Məqalədə "Zəngi" qəzetində qadınların mətbuata gətirdiyi yeni nəfəs, onların maarifçilik missiyası və bu fəaliyyətin Qərbi Azərbaycan mətbuat tarixindəki yeri ətraflı şəkildə təhlil olunur.

***Açar sözlər:*** *Qərbi Azərbaycan, anadilli mətbuat, "Zəngi" qəzeti, qadin müxbirlər, qadınların maarifçilik fəaliyyəti*

## Giriş

*Qərbi Azərbaycan – qədim türk yurdu olan İrəvan torpaqları əsrlər boyu Azərbaycan xalqının mədəni, ədəbi və mənəvi həyatının mühüm mərkəzlərindən biri olmuşdur. Bu bölgə təkcə coğrafi məkan deyil, saz-sözün, şifahi xalq ədəbiyyatının, maarifçilik ənənələrinin və milli düşüncənin formalaşdığı mənəvi ocaq kimi tanınmışdır. Lakin XIX əsrin sonlarından başlayaraq ermənilər tərəfindən bu torpaqların tarixi-mədəni kimliyinin saxtalaşdırılması, yer-yurd adlarının dəyişdirilməsi və bölgənin azərbaycanlılara məxsus irsinin silinməsi istiqamətində məqsədyönlü siyasət həyata keçirilmişdir. Buna baxmayaraq, İrəvan mühitində yetişən ziyalı nəsillər, maarifpərvər qadınlar, mətbuat və aşıq sənəti nümayəndələri milli kimliyin, ana dilinin, ədəbiyyat və mədəniyyətin qorunması uğrunda ardıcıl mübarizə aparmışlar. Xüsusilə XX əsrin əvvəllərində İrəvan mətbuatı – həm maarifçilik ideyalarının yayılmasında, həm də qadınların ictimai həyatda fəallaşmasında mühüm rol oynamışdır.*

Azərbaycan mədəniyyətinin mühüm sahələrindən biri qədim Oğuz yurdu olan İrəvan torpaqlarına qarşı ermənilərin əsassız iddialarını ifşa etmək və bu ərazilərin tarixən azərbaycanlılara məxsus olduğunu sübut etmək istiqamətində aparılan ideoloji mübarizədir. Ermənilər heç bir elmi və tarixi fakta əsaslanmadan İrəvan xanlığının ərazilərini və oradakı qədim türk yaşayış məskənlərini öz adlarına çıxarmağa, bu yerlərin adlarını dəyişdirərək saxta tarix yaratmağa çalışıblar.

Halbuki bu ərazilər təkcə coğrafi məkan deyil, həm də qədim türk mədəniyyətinin beşiklərindən biri olmuşdur. Qərbi Azərbaycan, xüsusilə də İrəvan mahalı türklərin saz-söz ənənəsinin, ədəb və

əxlaqının, milli dəyərlərinin nəsildən-nəslə ötürüldüyü müstəsna bir bölgədir. Bu xanlığın adı çəkiləndə ilk növbədə Gərnibasar, Göyçə, Dərəçiçək, Dərələyəz, Ağbaba mahalları – saz-söz yada düşür. Bu torpaqların hər daşında türk dilinin səsi, ana nəğməsinin ahəngi, şifahi xalq ədəbiyyatının ruhu yaşayır.

XIX əsrin ilk onilliklərindən başlamış ta XX əsrin iyirminci illərinədək olan müddətdə Azərbaycanın qərbində, xüsusilə də İrəvan quberniyasında ictimai-bədii təfəkkürün xarakterik xüsusiyyətlərini özündə kifayət qədər əks etdirən regionlardan biri İrəvan ictimai-siyasi, mədəni və ədəbi mühitidir. İrəvanın quberniya mərkəzi olması, burada ədəbi mühitin milli-mənəvi oyanışı və milli özünüdərk prosesinin milli mənlik şüuru səviyyəsinə çatıb, xalqı əlindən alınan istiqlal mübarizəsinə qaldırmaqda oynadığı rol ədəbi-bədii tariximizin araşdırıcılarının diqqətini cəlb etdi. Maarifçilik fəaliyyəti bilavasitə İrəvanla bağlı olan Firidun bəy Köçərli özünün 1926-cı ildə işıq üzü görən iki cildlik "Azərbaycan ədəbiyyatı tarixi materialları"nda İrəvanda ədəbi mühit və İrəvan şairləri haqqında kifayət qədər məlumat vermişdir.

Arxiv sənədləri göstərir ki, XIX əsrdə bütün Qafqazda azərbaycanlılar Qərbi Azərbaycanda daha sıx yaşamışlar. Zəngin maddi və mənəvi sərvətləri, folklor ədəbiyyatı, aşıq sənəti, kütləvi məktəb şəbəkəsi, incəsənət, memarlıq abidələrinin orijinallığı ilə fərqlənmişlər. Həmçinin Qərbi Azərbaycanda yaşayan azərbaycanlılar ədəbi dilimizi, dinimizi, adət-ənənələrimizi qoruyub saxlamaqda və daha da zənginləşdirməkdə, başqa millətlərlə nikaha girməməkdə də bir nümunə olmuşlar. Qərbi Azərbaycan mühitində yaşayıb-yaradan ziyalılardan söhbət açarkən onu da qeyd etmək lazımdır ki, o yerlərdə yaşayan xalqın ümumi mədəni səviyyəsi, elm və mədəniyyəti, xalq maarifi və məktəb təhsilinin ümumi mənzərəsinə ötəri olsa da nəzər salmaq yerinə düşərdi. Şimali və Cənubi Azərbaycan kimi Qərbi Azərbaycanda da xalq maarifi və məktəb təhsili özünəməxsus inkişaf yolu keçmişdir.

İrəvan şəhəri tarixən azərbaycanlıların köklü yaşadığı böyük elm, maarif və mədəniyyət mərkəzlərindən biri kimi şöhrət tapmışdır. İrəvan şəhəri bütün dövrlərdə Qərbi Azərbaycanda azərbaycanlıların mədəni mərkəzi olmuşdur. Firidun bəy Köçərli bu barədə yazırdı: "Şəhri-İrəvan keçmişdə mərkəzi-üləma, füzəla və şüəra olub". [6, s.202] Bu şəhər görkəmli elm və mədəniyyət xadimlərinin beşiyi kimi tanınmış, Azərbaycan ədəbiyyatının inkişafında xidmətləri olmuş ədiblər bəxş etmişdir. İrəvanda dünyanın hər yerindən sorağı gələn ziyalı nəsillər yetişmişdir. Onlardan XIX əsrin ikinci yarısında tanınan Mirbabayevlər, Bağırbəyovlar, Topçubaşovlar, Muğanlınskilər, Fərəcovlar və başqa nəsillərin nümayəndələri İrəvan quberniyasında nüfuz və mövqe sahibləri olmuşdur. İrəvan Qafqazda elmin, maarifin, mədəniyyətin ən çox inkişaf etdiyi mərkəzlərdən biri kimi tanınmışdır.

XIX əsrin sonları, XX əsrin əvvəllərində Cənubi Qafqazda Azərbaycan dilində nəşr edilən mətbuatın sıralarının genişlənməsi İrəvanda da mətbuata olan marağın artmasına səbəb olmuşdu. Həmin dövrdə artıq İrəvanda ədəbi-ziyalı mühiti formalaşmağa başlamışdı. İrəvanlı ziyalılar, xüsusən də İrəvandakı məktəblərin müəllimləri və məzunları "Əkinçi" (1875-1877), "Kəşkül" (1883-1891), "Kaspi" (1881-1919), "Şərqi-Rus" (1903-1905), "Həyat" (1905-1906), "İrşad" (1905-1907), "Füyuzat" (1906-1907), "Molla Nəsrəddin" (1906-1931) kimi qəzet və jurnallarla əməkdaşlıq edirdilər. İrəvanda Azərbaycan dilində ilk mətbuat çar Rusiyası dövründə işıq üzü görmüşdür. Lakin 1918-1920-ci illərdə İrəvan quberniyası ərazisində ilk erməni dövləti – Ermənistan (Ararat) Respublikasının mövcudluğu dövründə İrəvanda Azərbaycan dilində mətbuat nəşr olunmamışdır. Ermənistanda sovet hakimiyyəti qurulduqdan sonra, 1921-ci ildən etibarən müəyyən fasilələrlə İrəvanda Azərbaycan dilində qəzet çap olunmuşdur. Çar Rusiyası dövründə İrəvan ziyalılarından Mirzə Kazım Qazi Əsgərzadə ("Mütəlle") və Hacı Seyid Rza Əmirzadə ("Sabir"), Məhəmmədəli bəy Vəliyev "Əkinçi" qəzeti ilə əməkdaşlıq etmişlər. [1, s.13] İrəvan şəhərində Azərbaycan dilində ilk mətbu orqanı "Lək-lək" ("Leylək") adlı satirik məcmuə olmuşdur. İrəvan ziyalılarından Mirməhəmməd Mirfətullayev və Cabbar Əsgərzadə İrəvan qubernatorunun 21 yanvar 1914-cü il tarixdə onlara verdiyi icazəyə əsasən həmin il fevralın 22-də "Lək-lək"in ilk nömrəsini buraxmışdılar. Daha "Bürhani-həqiqət", "Kommunist" , "Zəngi" və başqa qəzetlər işıq üzü görüb. Bu qəzetlərdə kişilərlə bərabər qadınlar da fəaliyyət göstərirdi.

1924-cü il noyabr ayının ortalarında Azərbaycan dilində çap olunan "Zəngi" qəzeti daha önə çıxır. Qərbi Azərbaycanın mətbuat tarixi, cəmiyyətin inkişafı ilə yanaşı, qadınların mətbuata daxil olması ilə də diqqət çəkir. "Zəngi" qəzeti XIX əsrin sonu və XX əsrin əvvəllərində, yalnız informasiya yayımında deyil, həm də qadın müxbirlərin ilk addımlarını atdığı bir platforma kimi mühüm yer tutur. Bu qəzet həm təhsil, həm də mədəniyyət sahəsində maarifçilik hərəkatının carçısı olmaqla yanaşı, qadınların cəmiyyətdəki rolunun artmasına şərait yaratmışdır.

"Zəngi" qəzeti 1924-cü ildən fəaliyyətə başlamış və yalnız Qərbi Azərbaycan deyil, bütün Azərbaycan daxilində maarifçilik ideyalarını təbliğ etmək üçün mühüm bir platforma olmuşdur. Qəzetin əsas məqsədi cəmiyyəti maarifləndirmək, təhsil və mədəniyyət sahələrində islahatlar həyata keçirmək və millətin gələcəyini təmin etmək idi. Lakin onu digər dövri mətbuat orqanlarından fərqləndirən əsas cəhət qadınların mətbuatda rolunun ilk dəfə olaraq təsdiqlənməsidir. XIX əsrin əvvəllərindən etibarən Qərbi Azərbaycanda, xüsusilə də İrəvan quberniyasında milli-mədəni mühit inkişaf etməyə başlamışdır. Bu mühitin formalaşmasında qadınların rolu xüsusilə diqqətə layiqdir. Ailədə ana dilinin qorunması, adət-ənənələrin yaşadılması və uşaqların milli ruhda tərbiyə olunması, əsasən, qadınların üzərinə düşürdü. Bu mənada “Zəngi” qəzeti yalnız bir informasiya vasitəsi deyil, həm də qadınların ictimai həyatda maarifçilik yolu ilə fəallaşmasının öncüsü olmuşdur. Qəzetin səhifələrində qadın müəlliflərin çıxış etməsi təkcə onların qələm fəaliyyətini deyil, cəmiyyətin qadına münasibətindəki dəyişiklikləri də əks etdirirdi. Qərbi Azərbaycanda yaşayan ziyalı qadınlar – müəllimələr, yazıçılar, jurnalistlər – mətbuat vasitəsilə öz sözlərini deməyə başladılar. Onların yazılarında təkcə qadın haqları deyil, ümumxalq məsələləri – ana dilinin qorunması, milli birliyin gücləndirilməsi, təhsilin inkişafı və maarifçilik ideyaları ön planda dururdu. Bu yazılar vasitəsilə qadınlar həm öz mövcudluqlarını cəmiyyətə bəyan edir, həm də xalqın maariflənməsi işində bilavasitə iştirak edirdilər. Onlar üçün mətbuat həm qürur, həm məsuliyyət, həm də azadlıq meydanı idi.

Qadın müxbirlər həmçinin cəmiyyətdəki sosial ədalətsizlikləri, təhsil çatışmazlıqlarını və mədəni gerilikləri tənqid edərək daha azad və bərabər bir cəmiyyətin formalaşmasına çalışmışlar. Onların fəaliyyətləri yalnız qadınların mətbuat sahəsindəki iştirakını artırmamış, həm də Azərbaycan mətbuat tarixində qadınların öz fikirlərini sərbəst ifadə etməsi üçün yol açmışdır. "Zəngi" qəzeti qadın müxbirlərin məqalələri ilə cəmiyyətdə maarifçilik ideyalarını yaymaqla yanaşı, eyni zamanda mədəniyyətin inkişafına da böyük təsir göstərmişdir. Bu qəzetin fəaliyyət göstərdiyi dövrdə Qərbi Azərbaycanda təhsil və mədəniyyət sahəsindəki dəyişikliklər çox sürətli olmuşdur. Qadınlar öz yazıları ilə bir tərəfdən təhsilin vacibliyini vurğulamış, digər tərəfdən isə qadınların sosial həyatda aktiv iştirakını təmin etmək üçün ardıcıl olaraq cəmiyyətin maarifləndirilməsi üçün fəaliyyət göstərmişlər.

Onların mətbuatda fəal iştirak etməsi, yalnız qadın hüquqlarının müdafiəsi deyil, eyni zamanda millətin inkişafına xidmət edən vacib bir addım olmuşdur. Qadın müxbirlər cəmiyyətin ənənəvi baxışlarını dəyişdirmək və qadınların mətbuatda iştirakını artırmaqla, həm də sosial və mədəni sahələrdə islahatların həyata keçirilməsinə yol açmışlar. “Zəngi” qəzeti İrəvanda mədəni inqilabın inkişafında böyük və danılmaz xidmətləri olan İrəvan Türk Qadınlar Klubunun fəaliyyətini daim öz səhifələrində işıqlandırırdı. Bu klub bütün Qərbi Azərbaycanda Azərbaycan qadınları arasında geniş təbliğat və səmərəli maarifləndirmə işi aparırdı. Klubun ətrafına toplaşan mütərəqqi və fəal ziyalı qadınlar bu mədəniyyət maarif ocağının imkanlarından istifadə etməyə çalışırdılar. Onlar aydın dərk edirdilər ki, azərbaycanlı qadınlar arasında geniş miqyasda təbliğat, təşviqat, səmərəli iş aparmaq üçün mətbuat müstəsna əhəmiyyətə malikdir və bu tribunadan bacarıqla istifadə etmək lazımdır. Bu məqsədlə Qadınlar klubunda müxbirlər cəmiyyəti təşkil olunub. O dövrün ziyalı qadınları həmin müxbirlər cəmiyyətinin fəal üzvləri idi. Qadınlar klubu İrəvanda Azərbaycan mətbuatının inkişafına da töhfə vermiş, onlarla azərbaycanlı müxbirin yetişməsində böyük rol oynamışdır. Klubun nəzdində yaradılmış və qadınlardan ibarət gənc müxbirlər cəmiyyətinin fəalları “Zəngi” qəzetində müxtəlif mövzularda məqalələr dərc etdirərək, onların mətbuata olan maraq və həvəslərini daha da artırırlar. Bu da öz növbəsində gənc müxbirlərin jurnalistika sahəsində müəyyən təcrübə qazanmasına kömək etdi. Gənc müxbirlər cəmiyyətinin fəal üzvləri mətbuat sahəsində təcrübə qazandıqdan sonra onların

bir qismi "Zəngi" qəzetinin aparıcı müxbiri olublar. "Zəngi" qəzetinin 1925-1928-ci illərinin nömrələrini nəzərdən keçirdikdə Bülbül Kazımova, Fatma Əfəndiyeva, Kübra İbrahimova, Bəyim Kazımova, Ənvər Rizayeva, Şaman Süleymanova, Mənzərə Axundova, Qeyis Münşiyeva, Nabat İbrahimova, Siddiqə Babayeva, İrbaba Bağırova və başqalarının "Zəngi" qəzetinin ən aktiv qadın müxbirləri kimi adlarına rast gəlirik. 1920-ci ildən sonra Qərbi Azərbaycanda milli mətbuatın ətrafında cəm olan bu tərəqqipərvər qadınlar mətbuat, mədəniyyət və maarif tariximizdə özünəməxsus yer tutur. Onların "Zəngi" qəzeti səhifələrində mübariz ruhda məqalələri, ictimai-mədəni fəaliyyətləri bir sıra maarifçi qadınların yetişməsində böyük rol oynayıb. "Zəngi" qəzeti səhifələrində dərc olunan məqalələrin əsas məzmununu qadın azadlığı mövzusu, iş, savadsızlıq, hüquqsuzluq, azyaşlı qızların ərə verilməsi, çadra əleyhinə mübarizə, qadınların geri qalmasının səbəbləri, onaların inkişaf yolu və qarşılarında duran vəzifələr təşkil edirdi. Yuxarıda adlarını qeyd etdiyimiz müxbirlər Azərbaycan qadınlarının bu gerilikdən qurtulub öz azadlıqlarına qovuşmasını, yalnız onların təhsilə, elmə yiyələnməsində görürdülər və məqalələrində bu barədə xüsusi bəhs edirdilər. Bu istedadlı və fədakar qadınların İrəvanda Azərbaycan mətbuatının təbliğində və inkişafında da böyük xidmətləri bu gün də böyük minnətdarlıqla xatırlanır.

"Zəngi" qəzetində qadınların ictimai-siyasi fəaliyyətini əks etdirən yazılara geniş yer verilirdi. Qəzetin səhifələrində "Azad qadın", "Talibə", "Azad uşaq", "Şərqli qız" kimi imzalarla çap olunan məqalələr qadınların maariflənməsi, azad fikirli yetişməsi və cəmiyyətdə fəal mövqe tutması üçün yazılırdı. [3] Həmin dövrdə sovet hakimiyyəti yeni qurulmuşdu və bu səbəbdən Qərbi Azərbaycanda qadınların ictimai həyatda iştirakı xüsusi əhəmiyyət kəsb edirdi. Qadınların qəzetdə fəallığı onların maarifçilik mübarizəsinin bir hissəsinə çevrilməsinə imkan yaradırdı. Təəssüf ki, bu qadınların çoxunun həyat və fəaliyyətləri barədə məlumatlar yalnız dövrün mətbuat materialları və xatirə yazıları vasitəsilə əldə olunur.

Fatma Əfəndiyeva İrəvanın ilk maarifpərvər qadınlarından biri, İrəvan Dövlət Azərbaycan Dram Teatrının ilk qadın aktisası, görkəmli dövlət xadimi Bala Əfəndiyevin həyat yoldaşı olub. 1906-cı ildə Gəncə quberniyasının Qazax qəzasının Çəmbərək (indiki Krasnoselo) rayonunun Çaykənd kəndində anadan olmuş Fatma xanım ilk təhsilini Çaykənddə almışdır. Bala Əfəndiyevin əmisi qızı və eyni zamanda həyat yoldaşı olmuşdur. Qeyd edilənə görə, Sovet Ermənistanında Türk Qadınlar Klubunun təşkilatçısı və ilk müdiri olan F.Əfəndiyeva orada mədəni-maarif sahəsində xeyli işlər görüb. "Zəngi" qəzetinin ilk qadın müxbirlərindən biri olub. Əlbəttə, Türk Qadınlar Klubunun təşkilatçısı və ilk rəhbəri kimi o, bura qadınları cəlb edib, onların savadlanması uğrunda maarifçilik işi, təbliğat aparmışdır. Fatma Əfəndiyeva Ermənistanda 20-ci əsrin iyirminci illərində latın əlifbasına keçidin də öncüllərindən biri olmuş və həyat yoldaşı Bala Əfəndiyevlə birlikdə İrəvanının mədəni və maarif həyatında aktiv rol almışdır. 1929-cu ilədək Ermənistan SSR ictimai təminat komissarı (1935-1937) işləmiş Bala Əfəndiyevin 1938-ci ildə repressiyaya məruz qalaraq güllələnməsindən sonra Fatma xanım Əfəndiyeva da 8 il müddətinə azadlıqdan məhrum edilmişdir. Hər ikisi təxminən 20 il sonra tam bəraət qazanmışlar. Fatma xanım Əfəndiyeva İrəvan Dövlət Azərbaycan Dram Teatırının fəal üzvü olmaqla bərabər məsul vəzifələrdə çalışan yoldaşı Bala Əfəndiyevin rəhbərliyi ilə İrəvanda yeni əlifba ilə ana dilində nəşr olunan "Zəngi" və "Rəncbər" qəzetlərində də müxbir kimi fəaliyyət göstərmişdir.

"Zəngi" qəzetinin digər qadın müxbirlərindən biri də Qərbi Azərbaycanın tanınmış maarif xadimi Mehdi Kazımovun həyat yoldaşı Bülbül Kazımova (Muradova) olub. İrəvanda ilk azərbaycanlı qadın müəllimlərindən biri olan Bülbül Hacı Məmmədtağı qızı (1887-1976) İrəvan şəhərində anadan olub, 1914-cü ildə İrəvan rus-müsəlman qız məktəbini bitirib. Bülbül xanım 1917-ci ildə İrəvan oğlan məktəbinin nəzdində qızlar üçün açılmış bir sinifli məktəbdə müəllim işləyib. Lakın bu maarif çırağı 1918-ci ildə ermənilərin azərbaycanlılara qarşı törətdikləri vəhşiliklər zamanı söndürülüb. Bülbül Kazımova 1918-ci ildə erməni daşnaklarının qanlı zülmü nəticəsində İrəvandan didərgin düşərək Gəncə şəhərinə üz tutub. Sonra Gədəbəyə gedib və o, orada ilk qız məktəbini təşkil edib. O, Azərbaycanın müxtəlif şəhərlərində, o cümlədən Naxçıvanda və Qərbi Azərbaycanda neçə-neçə məktəbin, klub və mədəniyyət evinin əsasını qoyub. 1923-cü ildə İrəvana qayıdan Bülbül Kazımova gərgin ictimai və pedaqoji fəaliyyətini davam etdirərək daha da genişləndirib. Görkəmli

maarif işçisi, ictimai xadim Bülbül Kazımova bir çox orden və medallarla təltif edilib. O, 20 ilə yaxın İrəvan Azərbaycanlı Qadınlar Klubuna rəhbərlik edib, Qərbi Azərbaycanın ilk maarifpərvər qadınlarından biri olub. Bakıda nəşr edilən "Şərq qadını" jurnalında və digər mətbuat orqanlarında yazıları dərc edilirdi.

Bəyim Kazımova İrəvan şəhərində anadan olub, 1926-cı ildə İrəvan Azərbaycanlı Qadınlar Klubunun nəzdində açılmış savad kurslarında dərs deyib. O, Qərbi Azərbaycanda azərbaycanlı qadınlar arasında savadsızlığın aradan qaldırılmasında fəal iştirak edib, İrəvanda çadrasını atan ilk qadınlardan olub.

İrbaba Bağırova 1901-ci ildə İrəvanda anadan olub. 1916-cı ildə İrəvanda İkinci Şəhər Qızlar Gimnaziyasında oxuyub. 1926-cı ilin oktyabrında Bakıda keçirilən Zaqafqaziya Qadınlar Klubu işçilərinin 2-ci konfransında İrəvan azərbaycanlı qadınlarını təmsil edərək İrəvan Azərbaycanlı Qadınlar Klubunun fəaliyyəti və qarşısında duran vəzifələrin həyata keçirilməsi haqqında məruzə ilə çıxış edib.

"Zəngi" qəzetinin müxbirlərindən biri də Qeyis Münşiyeva idi. Ümumiyyətlə, Münşiyevlərin İrəvanda Azərbaycan ədəbi-mədəni və ictimai-siyasi mühitinin formalaşmasında xidmətləri olan ziyalı nəsilləri arasında öz yeri və rolu olmuşdur. Qeyis Münşiyeva Qərbi Azərbaycanın tanınmış ictimai xadimi, 1937-ci il repressiyalarının qurbanı Hüseyn Münşiyevin bacısı olub, İrəvanda fəaliyyət göstərən Azərbaycan dram dərnəyinin işində fəal iştirak edən ilk qadınlardan olub. O, gənc yaşlarında – 1929-cu ildə, 27 yaşında İrəvan şəhərində vəfat edib.

Qərbi Azərbaycanda azərbaycanlı qadınların savadsızlığına qarşı mübarizə hərəkatında fəal iştirak edən qadınlardan biri də Nabat İbrahimova olub. Onun "Zəngi" qəzetində tez-tez "İbrahimova" imzası ilə məqalələri dərc olunurdu. O, İrəvan Azərbaycanlı Qadınlar Klubunun nəzdində fəaliyyət göstərən Qadın müxbirlər dərnəyinə rəhbərlik edib.

Ənvər Rizayeva İrəvanda İkinci Rus-Tatar Qızlar Məktəbində təhsil alıb. İrəvandakı Azərbaycan Dram və Qadın Klubunun nəzdində qadın müxbirlər birliyinin fəal üzvü olub.

Onlardan başqa, Şaman Süleymanova, Siddiqə Babayeva, Mənzərə Axundova da Qərbi Azərbaycanın ədəbi-mədəni, ictimai həyatında fəal işitirak edən qabaqcıl qadınlar olublar.

Yuxarıda adları çəkilən bu ziyalı qadınların Azərbaycan qadınlarının elmə, təhsilə cəlb olunmasında, Qərbi Azərbaycanda milli maarifimizin və mədəniyyətimizin inkişafında böyük rolu olmuşdur. Bütün bu ziyalı qadınların digər diqqətçəkən fəaliyyəti "Zəngi" qəzeti ilə əməkdaşlığı və həmin nəşrdə günün aktual problemlərinə həsr olunmuş məqalələr dərc etdirmələri olmuşdur.

## Nəticə

*"Zəngi" qəzeti təkcə bir mətbuat orqanı deyil, həm də qadın maarifçiliyinin simvoluna çevrilmişdir. Qəzetdə qadın jurnalistlərin fəallığı göstərir ki, Qərbi Azərbaycanda qadınlar ictimai və mədəni həyatda önəmli mövqeyə sahib olmuşlar. Onların maarifçilik fəaliyyəti, milli dəyərlərin qorunması, təhsil və hüquq məsələlərinə verdikləri töhfələr müasir dövr üçün də əhəmiyyətlidir.*

## Ədəbiyyat siyahısı:

1. Allahverdiyev C. Qərbi Azərbaycan mətbuatı tarixi / Cəlal Allahverdiyev. - Bakı: Səda, 2024. – 275 s.
2. Allahverdiyev C. İrəvan ədəbi mühiti / Cəlal Allahverdiyev. - Bakı : Elm, 2010. – 210 s.
3. Allahverdiyev C. İrəvanda azərbaycanlı jurnalist xanımların maarifçilik missiyası / Cəlal Allahverdiyev // Yeni Azərbaycan .- 2025.- 9 iyul (№116).- S.7.
3. Aşırlı A. Azərbaycan mətbuat tarixi. 1920 – 1990 / A. Aşırlı. - Bakı, 2009. – 225 s.
4. Axundov N. Azərbaycanda dövri mətbuat (1832-1920). Biblioqrafiya. / Nazim Axundov.- Bakı, 1965. - s. 70-71.
5. Hüseynzadə F. İrəvan quberniyasında sosial və mədəni həyat (XIX–XX əsrlər)/ F. Hüseynzadə. - Bakı: Şərq-Qərb, 2010.

6. Köçərli F. Azərbaycan ədəbiyyatı: 2 Cilddə. C.II. / Firidun bəy Köçərli. – Bakı: Elm, 1981. – 460 s.

7. Məhərrəmov Z. İrəvanda məktəbdarlıq və maarifçilik (1800-1920-ci illərdə ədəbi-mədəni mühit) / Ziyyədin Məhərrəmov; AMEA Nizami ad. Ədəbiyyat İn-tu. - Bakı: Nurlan, 2010. – 319 s.

**Jalal Allahverdiyev, Ramida Abbasova**

## "Zangi" Newspaper: Speech and Promotional Tribune of Women of Western Azerbaijan

***Summary***

The Zengi newspaper played a significant role in promoting enlightenment and increasing women's participation in the press in Western Azerbaijan. Female correspondents of the newspaper made valuable contributions to the development of society by writing on topics such as education, women's rights, family values, and the preservation of cultural heritage. Their activities paved the way for greater involvement of women in public life in Western Azerbaijan. The article provides a detailed analysis of the fresh perspective brought by women to journalism through Zəngi, their educational mission, and the importance of this movement in the history of Western Azerbaijani media.

***Keywords:*** *Western Azerbaijan, native language press, "Zangi" newspaper, women's educational activities*

*Tarix üzrə fəlsəfə doktoru, dosent* ***Aynur Hacıqədirli***
*tərəfindən çapa tövsiyə olunmuşdur.*